**Blutanq və quş qripi xəstəliyi ilə bağlı tətbiq edilmiş bəzi məhdudiyyətlərin aradan qaldırılmasına dair məlumat**
**(11 aprel 2023)**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (WOAH) rəsmi məlumatlarına əsasən, Xorvatiya Respublikasının İstriyska, Dybrovniçko-Neretvanskaya, Pojejsko-Slavonskaya, Primorsko-Qoranska dairələrində və Rumıniyanın Qorj inzibati ərazi vahidində blutanq, İran İslam Respublikasının Simnan, Ərdəbil əyalətlərində və Amerika Birləşmiş Ştatlarının Kanzas, Aydaho ştatlarında isə qeydə alınmış yüksək patogen quş qripi xəstəliyi aradan qaldırılıb. Belə ki, qeyd olunan inzibati ərazi vahidlərində WOAH-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, bu xəstəliklərin ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin bu yoluxucu xəstəliklərdən qorunması məqsədilə həmin inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlər aradan qaldırılıb. Eyni zamanda müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət olunub.